


LAYİHƏ

**ULU TANRI O YERLƏRİ BİZƏ VƏTƏN TORPAĞI KİMİ ƏRMƏĞAN EDİB**

SƏH. 2





BANK

Mərkəzi Bank: Devalvasiya ilə bağlı şayiələr əsassızdır

SƏH. 2






VERGİ

Vergi yükü azaldılır

SƏH. 3



iqtisadi qüdrətimiz naminə!

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 34 (929)
26 avqust -
1 sentyabr
2016-cı il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır


# Azərbaycan idmançıları "Rio-2016" Yay Olimpiya Oyunlarında yeni tarix yazdılar

Avqustun 5-dən 21-dək dünyanın diqqəti Braziliyanın Rio-de-Janeyro şəhərinə yönəldi. Əsrarəngiz təbiət, görməli yerləri ilə seçilən məkan bu dəfə öz qapılarını dünyanın ən məşhur idmançılarına açdı. Dörd illiyin zirvə yarışı olan Olimpiya Oyunlarına bu dəfə Rio-de-Janeyro ev sahibliyi etdi. 207 ölkədən idmançıların qatıldığı yarışda 11 mindən artıq atlet birincilik uğrunda mübarizə aparıb. Səksən yeddi ölkənin idmançılarının medal qazandığı yarışda Azərbaycan komandası Vətənə 18 medalla qayıdıb. Komandamız 1 qızıl, 7 gümüş və 10 bürünc medalla mötəbər yarışı 39-cu pillədə başa vurub.

Ölkəmizə qızıl medalı taekvondoçu Radik İsayev qazandırıb. Azərbaycan sübut etdi ki, taekvondo çempionları yalnız bu döyüş növünün vətənində yaşamır. Koreya Respublikası 2 qızıl və 3 bürünc medalla taekvondodakı üstünlüyünü "Rio-2016-da da göstərdi. Bununla yanaşı, Azərbaycan, Böyük Britaniya və Afrika ölkələrindən olan idmançılar bu idman növünün öz Vətənindən kənarda yayıldığını nümayiş etdirdilər. Azərbaycanlı taekvondoçular XXXI Yay Olimpiya Oyunlarında 1 qızıl, 2 bürünc medal əldə etdilər. Rio Olimpiadasında 80 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Azərbaycan taekvondoçusu Radik İsayev qızıl mükafat qazanıb. Digər taekvondoçularımız Milad Beigi Harçeqani (80 kq) və Patimat Abakarova (49 kq) bürünc medala sahib olublar.

Rio Olimpiadasında dördüncü yeri qazanan Azərbaycanın taekvondo üzrə yığma komandası MDB ölkələri arasında birinci, Avropada ikinci sırada qərarlaşıb. Tarixində ilk dəfə Olimpiya Oyunlarında mükafat qazanan taekvondo üzrə Azərbaycan millisi "Rio-2016-da ən yaxşı yığmalardan biri olub.

Başa çatan Rio-de-Janeyro Yay Olimpiya Oyunları Azərbaycan güləş tarixində də yeni səhifə açıb. Pəhləvanlarımız 4 illiyin zirvə yarışında digər Olimpiya Oyunları ilə müqayisədə daha çox medal qazanıblar. Rio-de-Janeyroda mübarizə aparan 14 güləşçimizdən 9-u Vətənə medalla qayıdıb. Medallardan 3-ü gümüş, 6-sı isə bürüncdür. Yarışların ilk üç günündə mübarizə aparan yunan-Roma güləşçilərimiz Rəsul Çunayev (66 kq) və Sabah Şəriətinin (130 kq) timsalında bürünc medala yiyələnib.

Qadın güləşçilərin yarışında Azərbaycan 3 idmançı ilə təmsil olunub. Baş məşqçi Semyon Çterevin rəhbərliyi altında çıxış edən güləşçilərimiz 1 gümüş və 1 bürünc medal əldə ediblər.

Yarışların son üç günündə mübarizə aparan sərbəst güləş yığmamız güləş tariximizdə yeni bir səhifə yazıb. Baş məşqçi Saypulla Absaidov və böyük məşqçi Firdovsi Umudovun rəhbərliyi altında 6 idmançı ilə təmsil olunan sərbəst güləş yığmamız 2 gümüş və 3 bürünc medala layiq görülüb. Medalların sayına və Dünya Güləş Birliyinin tərtib etdiyi ənənəvi reytinq sıralamasına görə, yığmamız bütün komandaları qabaqlayıb və ilk sırada qərarlaşıb.

Pəhləvanlarımız Rio-de-Janeyroda güləş idman növündə qazanılan medalların sayına görə Rusiya ilə ilk sıranı bölüşdülər - hərəyə 9 medal. Sərbəst güləş yığmamız isə qazandığı medalların sayına görə birinci olub.

"Rio-2016-da cüdoçular 7 gün ərzində 14 dəst medalın sahibini müəyyənləşdiriblər. Yarışa 6 kişi cüdoçu ilə qatılan Azərbaycan millisi Olimpiadada 2 gümüş medal əldə edib.

Azərbaycan boks millisi "Rio-2016-da final həyəcanı yaşayan 12 ölkədən biri olub. Belə ki, 13 medal dəsti uğrunda mübarizə aparan 11 boksçumuzdan – Lorenzo Sotomayor (64 kq) həlledici qarşılaşmada qüvvəsini sınayıb. Bununla, boks tariximizə ilk və hələlik yeganə finalçı kimi düşən idmançımız özbəkistanlı rəqibinə uduzsa da, gümüş mükafata layiq görülüb. Daha bir boksçumuz – Kamran Şahsuvarlı (75 kq) da Braziliyadan medalla qayıdıb. Olimpiyaçımız yığmanın hesabına bürünc mükafatı yazdırıb.

Nəticədə, Olimpiya Oyunlarını bir gümüş və bir bürünclə başa vuran boks komandamız "Rio-2016-da 10-cu yerə şərik olub.

Medal sayında birinci yeri isə Özbəkistan tutub. Kuba kimi nəhənglə eyni sayda qızıl medal qazanan asiyalılar digər mükafatlarda da onları qabaqlayıblar. Fransa isə siyahıda üçüncü olub. Ümumilikdə, 19 ölkənin idmançısı medala yiyələnib. Bunlardan on ikisi final həyəcanı yaşayıbsa, yeddisi yalnız bürünc qazanıb. Himni səslənən ölkələrin sayı isə səkkiz olub.

On səkkiz medalla Olimpiadanı başa vuran Azərbaycan komandası medalların sayına görə 207 iştirakçı və 87 mükafatçı dövlət arasında 15-ci yeri tutub. Bu nəticəyə görə respublikamız islam, türk və Qafqaz ölkələri arasında lider olub. Həmçinin idmançı sayının qazanılan medallara nisbətinə görə Azərbaycan Olimpiadanın lider dövlətlərindən olub.

Ölkəmizin müstəqil dövlət kimi 1996-cı ildə ilk dəfə qatıldığı Olimpiya Oyunlarından bu günədək medal sayında artım müşahidə olunur.

Bu uğurların əsasında Azərbaycanda idmana göstərilən dövlət qayğısı durur. Ölkəmizdə idman infrastrukturunun möhkəmləndirilməsi, yeni Olimpiya İdman komplekslərinin inşa olunması, idmançıların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasına imkan yaradır. Həmçinin irimiqyaslı idman tədbirlərinə yüksək səviyyədə ev sahibliyi edən respublikamız həmişə beynəlxalq idman qurumlarının diqqət mərkəzində olub. Yüksək təşkilatçılıq bacarığı ilə seçilən ölkəmiz ötən il ilk Avropa Oyunlarını müvəffəqiyyətlə keçirərək dünyanın diqqətini Bakıya yönəltməyi bacardı. Ölkəmizdə cari ildə "Formula-1" Avropa Qran-prisi təşkil olundu, sentyabrda isə 42-ci Dünya Şahmat Olimpiadası keçiriləcək. Gələn il isə paytaxtımız IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcək.





## Rusiya Azərbaycanın bu şirkətlərinə "yaşıl işıq" yandırdı



Azərbaycanın daha 4 şirkətinin adı Rusiya Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin reyestrinə daxil edilib.

Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidməti (Rosselxoznadzor) Azərbaycanın "Biləsuvar Aqro", "Pal Süd", "Səhliyalı", Qəbələ Quşçuluq Fabrikinə öz məhsullarını bu ölkəyə ixrac etmək üçün sertifikat verib .

"Biləsuvar Aqro" və "Pal Süd" süd və süd məhsulları, "Səhliyalı" ət və ət məhsulları, Qəbələ Quşçuluq Fabriki (Qəbələ Premium) isə quş əti istehsalçısıdır.

Bu sertifikat həmin müəssisələrə istehsal etdikləri məhsulları Rusiya Federasiyasına ixrac etmək imkanı yaradır. Şirkətlərə icazə 11 avqust 2016-cı il tarixində verilib.

Xidmət ötən ilin mart ayında "Ucar Aqro"ya, "Milk Pro"ya, "Atena"ya, "AZFPCO"ya (Milla), may ayında "Gəncə Süd"ə, İyul ayında "Dəvəçi Broyler" ASC (Səba quş əti), "Kaspian Fiş Ko" şirkətinə, bu ilin fevral ayında isə "Zəhmət Ruzi" şirkətinə icazə vermişdi.

Qeyd edək ki, ötən il Rusiya Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin əməkdaşları Azərbaycana səfər edib və sahibkarlıq subyektlərinə baxış keçirərək qiymətləndirmə aparmışdılar.




# Azərbaycanda 32,1 milyard manatlıq ÜDM istehsal olunub

2016-cı ilin yanvar-iyul aylarında Azərbaycanda 32 milyard 122,6 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 3,0 faiz az ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. 2016-cı ilin yanvar-iyun aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 27 milyard 2,3 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,4 faiz az ümumi daxili məhsul istehsal edilmişdir.



Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, azalmanın əsas səbəbi tikinti sektorunda istehsalın 30,7 faiz azalması olmuşdur.

Eyni zamanda, informasiya və rabitə sahələrində əlavə dəyər 12,5 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 3,0 faiz, emal sənayesində 2,8 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 2,6 faiz, mədənçıxarma sənayesində 2,5 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində isə 2,0 faiz artmışdır.

Cari ilin yanvar-iyul ayları ərzində istehsal olunmuş ümumi daxili məhsulun 35,2 faizi neft-qaz sektorunun, 64,8 faizi isə iqtisadiyyatın qeyri-neft sahələrinin payına düşmüşdür.

# Bu bank Qəbələdə şöbə açır



“Azər Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin xidmət şəbəkəsinə daha bir şöbə əlavə olunmuşdur. Belə ki, avqust ayının 20-də Bankın Qəbələ şöbəsinin açılışı baş tutmuşdur. Adıçəkilən şöbə Prezident İlham Əliyevin iştirakı ilə Qəbələ şəhərində açılışı gerçəkləşdirilən ASAN xidmət mərkəzinin daxilində yerləşir.

Burada müştərilərin fiziki və hüquqi şəxslərə bank hesablarının açılması, fiziki şəxslərə depozit hesablarının açılması, valyuta mübadilə əməliyyatlarının həyata keçirilməsi, nağdsız pul köçürmələri, ölkədaxili sürətli pul köçürmələri, şəxsi hesabdan nəğd vəsaitin çıxarılması, hökumət ödəniş portalı üzrə əməliyyatların aparılması kimi xidmətlərdən istifadə etməsi mümkündür.

“Azər Türk Bank”ın inkişaf strategiyasına uyğun olaraq yaradılmış yeni şöbə həftəiçi hər gün saat 10:00-dan 20:00-dək, şənbə və bazar günləri isə saat 10:00-dan 17:00-dək müştərilərin xidmətində olacaq.

Şəhər iqtisadiyyatının da inkişafına öz təsirini göstərəcək şöbə, Azər Türk Bankın digər şöbə və filiallarında olduğu kimi, müştəri məmnuniyyətini əsas tutaraq fəaliyyət göstərir.



# Palata: Turistlərin xarici valyutanı manata çevirmələrində problem yoxdur

Yayılmış söz-söhbətə görə, qeyri-iş günləri valyuta mübadiləsi çətinliyi mövcuddur. Xüsusilə, ölkəmizə gələn turistlər özləri ilə gətirdikləri xarici valyutanı manata çevirmək üçün mübadilə məntəqəsi tapa bilmirlər.

Maliyyə Bazarlarına Nəzarət Palatasının sözçüsü Rüfət Abbasov bildirdi ki, Bakıya gələn turistlərin xarici valyutanı manata çevirmələri sahəsində heç bir problem yoxdur:

"Əvvəla Heydər Əliyev Beynəlxalq Aeroportunda 24 saat fəaliyyət göstərən bank şöbəsində valyuta mübadiləsi həyata keçirmək mümkündür. Həmçinin, Bakının "Hyatt Park", "Hilton", "Fairmont" kimi mehmanxanalarında bank şöbələri var, digər mehmanxanalarda valyuta mübadiləsi avtomatları mövcuddur və bunların hamısı həftəsonu da çalışırlar. "Gənclik Mall" və “Park Bulvar” ticarət mərkəzlərində həftənin 7 günü saat 22:00-a kimi fəaliyyət göstərən bank filialları, “28 Mall” ticarət mərkəzində isə valyuta mübadiləsi avtomatı var. Bununla yanaşı, 10-dan çox bank filialı və şöbəsi həftənin 7 günü çalışır və onlardan ikisi 24 saat fəaliyyət göstərir".

Rüfət Abbasov əlavə etdi ki, Palata "Formula 1" zamanı Bakının mərkəzində xüsusi iş rejimində fəaliyyət göstərən bank filial və şöbələrinin siyahısı və xəritəsini bütün mehmanxanalara təqdim etmişdi:

“Hazırda isə Bakı və Azərbaycanın əsas turizm zonaları olan Qəbələ, Quba, Şəki, Lənkəran, Gəncə və digər şəhərlərdə fəaliyyət göstərən bank filial və şöbələri barədə xüsusi broşur hazırlayırıq və bunu bütün mühmanxalara təqdim edəcəyik. Həmçinin, broşur Mədəniyyət və Turizm Nazirliyi vasitəsilə ölkəmizə gələn turistlərə təqdim edilməsi üçün bütün turizm şirkətlərinə veriləcəkdir. Bizim xüsusi monitorinq qrupumuz bu məsələni araşdırır və indiyə kimi belə bir faktlar qeydə alınmayıb. Bu məsələ Palatanın rəhbərliyinin nəzarətində olan məsələdir”.

# Mərkəzi Bank: Devalvasiya ilə bağlı şayiələr əsassızdır

Hazırda Dövlət Neft Fondu Mərkəzi Bankın təşkil etdiyi hərraclarda valyuta satışları həyata keçirir və bu satışlar davam etdiriləcək.

Azərbaycan Mərkəzi Bankından bildirilib.

“Devalvasiya ilə bağlı şayiələr əsassızdır. Belə ki, manatın məzənnəsi mövcud məzənnə rejiminə uyğun olaraq valyuta bazarında tələb və təklifdən asılı olaraq formalaşır”, - deyə məlumatda vurğulanıb.

Mərkəzi Bankdan bildirilib ki, valyuta satışı hərraclarının keçirilmədiyi günlərdə banklararası valyuta bazarı fəaliyyət göstərir və banklar valyuta tələblərini bu bazar vasitəsilə ödəyə bilərlər.



KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” layihəsi çərçivəsində çap olunub.

# ULU TANRI O YERLƏRİ BİZƏ VƏTƏN TORPAĞI KİMİ ƏRMƏĞAN EDİB



**Azərbaycan dövlətinin regional inkişaf konsepsiyasının daxili strukturunda işğaldan azad edilmiş bölgələrin bərpası və dirçəldilməsi, həmin ərazilərdə kənd təsərrüfatının inkişafı və əlverişli biznes mühitinin yaradılması da özünə yer almışdır. Belə rayonlardan biri də Füzulidir. Bu bölgə müharibədən əvvəlki dövrdə ən güclü kənd təsərrüfatı rayonlarından biri olub. Hazırda Füzuli rayonu ərazisinin bir hissəsi mənfur düşmənin tapdağı altındadır. Buna baxmayaraq, azad edilmiş kəndlərdə kənd təsərrüfatı inkişaf edir, istehsalın həcmi artır. Xüsusilə taxılçılıq sahəsində ciddi irəliləyiş özünü göstərir.**

Füzuli Azərbaycanın qədim yaşayış məskənlərindən biridir. Burada əkinçiliyin və heyvandarlığın tarixi minilliklərə gedib çıxır. Qədim mağara və kurqanlardan tapılan buğda qalıqları bunu bir daha sübut edir. Tarixin yaxın dövrlərində də Füzulidə bol məhsul yetişdirilib. İkinci dünya müharibəsində və sonuncu illərdə Qarabağ əhalisini Füzuli taxılı aclıqdan xilas edib. Ulu öndər Heydər Əliyevin keçən əsrin 70-ci illərində respublikaya rəhbərlik etdiyi vaxtlarda Füzuli, sözün əsl mənasında inkişaf etmiş kənd təsərrüfatı rayonuna çevrildi. Məhz həmin dövrdə burada üzümçülük, pambıqçılıq, taxılçılıq, baramaçılıq və heyvandarlıq yüksək inkişaf səviyyəsinə gətirilib çıxarıldı.

Müharibə, işğal, hərc-mərclik və xaos Füzulinin ehtişamlı, şad-xürrəm günlərini əlindən aldı. Yalnız Heydər Əliyevin əzmi, iradəsi nəticəsində torpaqların bir hissəsini işğaldan azad etmək mümkün oldu, qaçqın və köçkün soydaşlarımız doğma yurd yerlərinə qaytarıldı. Beləliklə, uçmuş evlər dikəldildi, dağılmış təsərrüfatlar bərpa olundu, həyat öz axarına düşməyə başladı.

Ulu öndərin təşəbbüsü ilə 1997-ci ildən uğurla həyata keçirilən aqrar islahatlar kəndlinin torpaq üzərində mülkiyyətini tanıdı, hər kəs öz istədiyi məhsulu əkib biçmək imkanı qazandı. Bu işlərin həyata keçirilməsində dövlət öz qayğı və dəstəyini əsirgəmədi. Bütün görülən tədbirlər nəticəsində rayon nəinki özünü ərzaq məhsulları ilə təmin etdi, eyni zamanda, ölkə bazarına iri həcmdə kənd təsərrüfatı məhsulları çıxarmağa nail oldu. Son illər ölkə başçısının aqrar sahənin inkişafı ilə bağlı imzaladığı sərəncamlar və qəbul etdiyi qərarlar öz müsbət nəticəsini vermişdir. Həmin qərarlarda aqrar sektora dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun hədəflərin müəyyən edilməsi və zəruri addımların atılması ön plana çəkilmişdir. Bütün bunlar Füzuli əməkçilərinin inamını artırmış və fəallıqlarının yüksəlməsinə səbəb olmuşdur.

Cari ildə rayonun təsərrüfatlarından 120 min tondan çox taxıl tədarük edilərək emal müəssisələrinə göndərilmişdir.

Keçən il rayon üzrə əkinə yararlı 41080 hektar torpaq əkilmişdisə, cari ildə əkin sahələri 3383 hektar artırılaraq 44310 hektara çatdırılmışdır. Biçin qısa müddətdə və itkisiz aparılmış, 23905 hektardan 79481 ton buğda, 11923 hektardan isə 40852 ton arpa biçilmişdir.

Əkin altında olan 44431 hektar sahənin 35828 hektarında taxıl, 165 hektarında qarğıdalı, 505 hektarında pambıq, 141 hektarında kartof, 486 hektarında bostan, 618 hektarında tərəvəz, 37 hektarında günəbaxan, 6040 hektarında yem bitkiləri və 521 hektarında şəkər çuğunduru əkilmişdir. İstehsalın həcminin artımı ilə yanaşı, həm də məhsulun ixracı ilə bağlı ölkə prezidentinin müəyyən etdiyi stimullaşdırıcı tədbirlər nəticəsində ixracın müxtəlif seqmentlər üzrə artımı özünü göstərmişdir. Belə ki, 2016-cı ilin altı ayı ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə meyvə ixracı üzrə 13,1 faiz, tərəvəz məhsulları ixracı üzrə isə 31,3 faiz artım əldə olunmuşdur.

Ölkə rəhbərliyinin heyvandarlıq sahəsində qarşıya qoyduğu hədəf heyvanların cins tərkibini dəyişdirməklə stasionar bəsləmə şəraitinə keçirmək, örüş və otlaq sahələrini əkin kateqoriyasına daxil edərək yem bitkilərinin istehsalını genişləndirmək və güclü yem ehtiyatı yaratmaqdan ibarətdir. Burada əsas məqsəd örüş və otlaq sahələrindən səmərəli istifadə olunmasına nail olmaq və bu sahədə mütərəqqi metodların tətbiqini həyata keçirməkdir. Bu yolda məhsuldarlığı 5-6 dəfə yüksəltmək və heyvanların baş sayını 3-4 dəfə artırmaq olar ki, bu da dünyanın qabaqcıl ölkələri sırasına gəlib çatmaq deməkdir.



Stimullaşdırıcı tədbirlərdən biri kimi doğulan hər baş cins buzova görə fermerlərə 100 manat məbləğində subsidiyanın verilməsi rayonda heyvandarlıq sahəsində çalışan hər kəsin ürəyincə olmuşdur. Rayonda bitkiçilik üzrə qarşıya qoyulan əsas vəzifə torpaqların hər tərəfli analizinin aparılmasıdır. Bu tədbirlər görülmədən, əslində əkin sahələrinə hansı növ və nə qədər miqdarda kübrənin verilməsini müəyyən etmək çox çətindir. Artıq bu istiqamətdə rayonda müvafiq işlər görülmüşdür. Müəyyən olunmuşdur ki, Füzuli rayonunda ümumi torpaq sahəsi 139392 hektar təşkil edir. Bunun 67692 hektarı işğal altında, 71700 hektarı öz əlimizdədir. Əlimizdə olan torpaqların 51000 hektarı əkinə yararlıdır. Həmin torpaqların 100098 hektarı öz axını ilə, 16044 hektarı isə nasos və artezian quyuları vasitəsi ilə suvarılır. Yerdə qalan 24858 hektar torpaq isə dəmiyə kateqoriyasına daxildir.

Rayon miqyasında cari ildə həyata keçirilən müsbət tədbirlərdən biri də pambıq əkin sahələrinin genişləndirilməsi ilə bağlıdır. Əslində buna genişləndirmə demək olmaz. Çünki ötən illərdə cəmi 5-6 hektar sahədə pambıq əkilmişdi, yəni yox dərəcəsində idi. Dünya bazarlarında pambıq ehtiyatlarının azalması, qiymətlərin qalxması fonunda pambıqçılığın inkişafı zəruri vəzifə kimi ortaya qoyulmuşdur. Həm də pambıqçılıq Füzuli rayonu üçün yeni sahə deyil, burada uzun illər pambıq əkilib-səpilib və yaxşı təcrübə formalaşıb. Cari ildə 506 hektar sahədə pambıq əkilib. Yetişdirilən məhsulun vaxtında yığılması və tədarükü məqsədilə bütün zəruri tədbirlər görülüb. Bu il tarlalardan 1000 tondan artıq məhsul götürülməsi nəzərdə tutulur ki, bu da təsərrüfat subyektlərinin yaxşı gəlir əldə etməsinə və məşğulluq probleminin həllinə kömək edəcək. Gələn il pambıq əkin sahələrinin bir neçə dəfə artırılaraq 2000-2500 hektara çatdırılması hədəf götürülüb. Bu isə ərazinin yarısı işğal vəziyyətində olan Füzuli rayonu əhalisinin bir çox sosial problemlərinin həllinə öz müsbət təsirini göstərəcək, yeni iş yerləri açılacaq, rayondan çıxıb gedənlərin qarşısı alınacaq.

İpəkçiliyə də dünya bazarlarında tələbat artıb. Rayonda yüzlərlə ailənin işlə təminatını nəzərə alaraq bu ildən barama istehsalına başlanılıb və bu istiqamətdə müvafiq infrastruktur tədbirləri həyata keçirilir. Keçən il istehsalı sıfıra bərabər olmuş barama istehsalına cari ildə uğurlu başlanğıcla – 3030 kiloqram məhsulla start verilib.

Cari ildə pambıq, tütün və barama xammalının tədarük qiymətlərinin artırılması, hər hektar pambıq və tütün əkininə görə əlavə 40 manat, cəmi 90 manat, tədarük edilən hər kiloqram baramaya görə 2 manat subsidiyanın verilməsi və barama toxumlarının əvəzi ödənilmədən istehsalçılar arasında paylanması bu sahədə nikbin proqnozlar vəd edir. Başqa bir ciddi problem də öz həllini tapmaqdadır. Bir neçə il öncə məhsulun sahələrdən birbaşa satışı ilə istehlak bazarında satışı arasında olan qiymətlərdə 3-5 dəfə fərq var idi. Son vaxtlar görülən tədbirlər nəticəsində bazar infrastrukturu təkmilləşdirilmiş və həmin fərq 2 dəfəyədək aşağı düşmüşdür.

Bundan başqa, torpaq sahələrinin, xüsusilə bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi mexanizminin sadələşdirilməsinə, işğal faktı ilə bağlı dövlət mülkiyyətində saxlanılan və əhali tərəfindən əkilib becərilən əkin sahələrinə görə subsidiyaların verilməsi üçün hüquqi əsasların yaradılmasına ciddi zərurət vardır.

Respublika miqyasında əkin dövriyyəsinə daxil olan torpaqlardan istifadə mexanizmin qısa müddətdə işlənib hazırlanması, aqrokimya laboratoriyalarının yenidən qurulması və ən müasir avadanlıqlarla təchiz edilməsi, istehsal olunan məhsulun keyfiyyətinə nəzarətin gücləndirilməsi, istehsal olunan məhsulun, həmçinin əkin sahələrinin dəqiq və şəffaf uçotunun aparılması da vacib məsələlər sırasındadır. Bundan başqa, Füzuli rayonunda aqrar bölmənin texniki və elektron təminatı, kadr hazırlığı sahəsində də problemlər mövcuddur və həmin problemlərin həlli istiqamətində müvafiq tədbirlərin görülməsinə ehtiyac duyulur.

Toxumçuluğun maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni toxum materiallarının yaradılması, baramaçılığın inkişafını təmin etmək üçün çəkil plantasiyalarının salınması sahəsində də görüləsi işlər çoxdur və yaxın illərdə mərhələlərlə lazım olan tədbirlərin hamısı görüləcək.

Torpaq halallıq sevir. Füzulililər nə əksə də, nə səpsə də bitib göyərəcək, yaxşı bəhrə, bol məhsul verəcək. Torpaq haram əldən düşən dəni cücərtməz. İşğal altında olan torpaqlarımız kimi. Tezliklə o yerlərə dönəcəyik. Bu həmin əraziləri halallıqla, xeyir-dua ilə bizə Vətən torpağı kimi ərməğan edən ulu Tanrının hökmüdür!

*Zülfü İLYASOV,*
*«İqtisadiyyat» qəzetinin bölgə müxbiri. Füzuli rayonu*

# Vergi Tədris Mərkəzi nazirlikdə çalışan insan resurslarının inkişafına xidmət edir

*Azərbaycan Respublikasının Prezidentinin fərmanı əsasında yaradılmış və 2011-ci ildən fəaliyyətə başlamış Vergilər Nazirliyinin Tədris Mərkəzi insan resurslarının inkişaf etdirilməsini, kadrların peşə hazırlığının müasir səviyyəyə yüksəldilməsini daim diqqət mərkəzində saxlayır. Müsahibimiz Tədris Mərkəzinin rəisi Əli Həsənovdur.*



**-Əli müəllim, rəhbərlik etdiyiniz mərkəzin 5 illik fəaliyyətinə nəzər salanda statistik mənzərə necə görünür?**

-Bu illər ərzində mərkəzdə tədris və təlimin inkişafında müsbət dinamika müşahidə edilir. Məsələn, 2011-ci ildə qısamüddətli təlimlərə 265 nəfər əməkdaş cəlb edilmişdisə, 2015-ci ildə bu rəqəm 1988 olmuşdur. İxtisasartırma kursları üzrə tədris kurslarına 2011-ci ildə 59 nəfər əməkdaş cəlb edilmişdirsə, 2015-ci ildə 398 nəfər əməkdaş müxtəlif fəaliyyət istiqamətləri üzrə kurslarda iştirak etmişdir. Ştajçı əməkdaşların sayında azalma olmuşdur, bu göstərici 2011-ci ildə 149 nəfərdən 2015-ci ildə 126 nəfərə enmişdir.

Vergi orqanı əməkdaşları üçün tədrisin kifayətlilik göstəricisi kimi bir təqvim ili ərzində bir orta statistik vergi işçisinə düşən tədris günlərinin sayı əsas götürülür. 2015-ci ildə Tədris Mərkəzi tərəfindən təşkil edilən təlimlər üzrə kifayətlilik göstəricisi 7,1 adam-gün (fond hesabına saxlanılan müfəttişlər nəzərə alınmadan) olmuşdur. Müqayisə üçün qeyd edək ki, 2011-ci il ərzində həmin göstəricinin illik qiyməti 3,2, 2012-ci ildə 3,7, 2013-cü ildə isə 4,7, 2014-cü ildə isə 7,2 adam-gün olmuşdur. 2016-cı ilin birinci yarımillyi ərzində bu göstərici 4 adam-gün olmuşdur.

**- Tədris Mərkəzi həm də nazirlik miqyasında keçirilən iri tədbirlərin ünvanıdır...**

- Tədris Mərkəzində aparılmış yenidənqurma işlərindən sonra burada müxtəlif tədbirlər keçirilmişdir. 2015-ci il iyunun 5-də "Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Yenə həmin il 9-11 sentyabr tarixlərdə nazirliyimizin Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) ilə əməkdaşlığı çərçivəsində "Vergi üzrə Peşəkar Təlim və İnkişaf Forumu" keçirilmişdir. Forumda Azərbaycan daxil olmaqla 26 ölkənin 50-yə yaxın nümayəndəsi iştirak etmişdir.

"İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək" Tvinninq layihəsi çərçivəsində Vergilər Nazirliyinin Tədris Mərkəzində 2-4 noyabr və 5-6 noyabr 2015-ci il tarixlərdə "Heyətin idarə edilməsi" mövzusunda təlimi keçirilmişdir.

Bu ilin aprel ayında Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin, AMEA-nın Tarix İnstitutunun, Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzinin və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusunda III Beynəlxalq elmi konfransı Tədris Mərkəzində davam etdirilmişdir.

"İnsan resurslarının inkişafı üzrə Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək" Tvinninq Layihəsi çərçivəsində Tədris Mərkəzinin əməkdaşları üçün 19-21 aprel 2016-cı il tarixlərdə "Təlimçilər üçün təlim" mövzusunda təlim aparılmışdır.

Vergilər nazirinin əmri ilə təsdiq edilmiş "2013-2020-ci illərdə Vergi sisteminin İnkişaf Strategiyası"nda əsas strateji məqsədlərdən biri kimi bələdiyyələrə yerli vergilərin və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, habelə vergi qanunvericiliyinə tam və dəqiq riayət edilməsi sahəsində metodiki rəhbərlik edilməsi nəzərdə tutulmuşdur. Bələdiyyələrin Vergi İnformasiya Sistemi proqram təminatından istifadə ilə bağlı biliklərinin artırılması və bu sahədə qarşılaşdıqları problemlərin həlli məqsədilə, proqramın tətbiq edildiyi bələdiyyələrin nümayəndələri ilə 4-5 iyul 2016-ci il tarixlərdə "Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi. Bələdiyyələrin Vergi İnformasiya Sistemində iş prosedurları" mövzusunda təlim keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə 2 iyul 2016-cı il tarixdə "AVİS-in müvafiq bölməsindən istifadə qaydaları" mövzusunda icra məmurları üçün təlim təşkil edilmişdir...

**- Vergi təlim və tədris prosesinin təkmilləşdirilməsi üçün nə kimi tədbirlər görülür?**

-Vergilər nazirinin 18 mart 2016-cı il tarixli əmri ilə təsdiq edilmiş "Vergi orqanı əməkdaşlarının və vergi orqanlarına işə qəbul olunan şəxslərin sahələr üzrə sertifikatlaşdırılması barədə Tədbirlər Planı"nda sahələr üzrə təlim proqramlarının, proqrama daxil ediləcək mövzular üzrə təlim materiallarının və test bazasının hazırlanması kimi tapşırıqların icra edilməsi nəzərdə tutulmuşdur.

Tədris Mərkəzinin Vergilər Nazirliyinə müraciəti əsasında təqdim edilmiş qrafikə uyğun olaraq mütəxəssislər cəlb edilmiş, test bazası tamamilə yenilənmiş və ekspertizası keçirilmişdir.

"Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili Qaydaları"na əsasən, AVİS-in "Tədris" altsistemi və Vergilər Nazirliyinin "E-Kitabxana" altsisteminin "E-öyrənmə" bölməsi üzrə dəyişikliklər edilməsi də nəzərdə tutulmuşdur.

Keçən ay təsdiqlənmiş "Vergilər Nazirliyinin Tədris Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Tədbirlər Planı"nda tədris fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki təchizatın gücləndirilməsi və sosial təminatın yaxşılaşdırılması məsələləri üzrə bir sıra tədbirlərin reallaşdırılması nəzərdə tutulur.

**-Mərkəzdə təşkil edilən tədris kurslarının ümumi nəticələri haqqında nə deyə bilərsiniz?**

-Vergilər nazirinin 13 may 2016-cı il tarixli əmri ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili qaydaları" dövlət vergi orqanlarının vəzifəli şəxslərinin, habelə dövlət vergi orqanlarına staj və sınaq müddətinə qəbul edilmiş şəxslərin peşə hazırlığının planlaşdırılmasını, təşkilini və nəticələrinin qiymətləndirilməsi prosedurlarını müəyyən edir.

Mərkəzdə tədris kursları iki hissədən: ixtisasartırma təhsili və qısamüddətli təlimlərdən ibarətdir. İxtisasartırma təhsili peşə fəaliyyətinin ümumi əsasları; ixtisas sahələri (fəaliyyət sahələri); innovasiyalar kimi təlim modulları üzrə həyata keçirilir.

Qısamüddətli təlimlər Vergilər Nazirliyinin struktur vahidləri və bölmələrinin müvafiq struktur vahidinə müraciəti, eləcə də müvafiq struktur vahidin təşəbbüsü ilə təlimin gündəliyi əsasında Nazirliyin elektron kitabxanasının "Onlayn təlim" sistemində və ya Tədris Mərkəzində təşkil edilir.

Bu günə qədər "Peşə fəaliyyətinin ümumi əsasları" təlim bloku üzrə 3 təlim kursu təşkil edilmiş və bu təlimlərə 60 nəfər stajçı əməkdaş cəlb edilmişdir.

İxtisas sahələri (fəaliyyət sahələri) modulunun məqsədi əməkdaşların fəaliyyət sahələri üzrə bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini təmin etməkdir.

"Dövlət vergi orqanlarında icra intizamına nəzarət və kargüzarlıq işinin təşkili" və "Vergi öhdəliklərinin müəyyənləşdirilməsi və icrasına nəzarət işlərinin təşkili" ixtisas (fəaliyyət) sahələri üzrə iki ixtisasartırma təlimi keçirilmişdir və bu təlimlərə 24 nəfər dövlət vergi orqanı əməkdaşı cəlb edilmişdir.

Müvafiq fəaliyyət sahəsi üzrə təlimlər ixtisasartırma təhsilinin "İxtisas sahələri üzrə təlim modulu" çərçivəsində təşkil edilir.

"İnnovasiya"lar təlim prosesində yeni istiqamətdir. Əsas məqsəd əməkdaşların daim dəyişən və yeniləşən iş şəraitinə uyğunlaşmasını, yeniliklərin mənimsənilməsini, idarəetmə qabiliyyətlərinin yüksəldilməsini, yeni texnologiyalar və texniki vasitələrlə iş vərdişlərinə yiyələnməsini təmin etməkddir.

Bu istiqamətdə təlimlərin keçirilməsi məqsədilə Nazirliyin müxtəlif strukturlarından təkliflər daxil olmuşdur. İlk təlim 18-19 avqust 2016-cı il tarixdə keçirilmişdir və ilin sonuna qədər daha bir-neçə təlim keçiriləcəkdir.

**-Hazırda əməkdaşların sertifikatlaşdırılması ilə bağlı təlimlər aparılır. Bu sahədə vəziyyət necədir?**

- 2016-cı il ərzində bu günə qədər sertifikatlaşdırılma ilə əlaqədar operativ vergi nəzarəti, vergi ödəyicilərinin uçotu və qeydiyyatı, vergi borclarının alınması, vergi auditi, vergi cinayətlərinin ibtidai araşdırılması və bəyannamələrin kameral yoxlanılması sahələri üzrə Vergilər Nazirliyinin elektron kitabxanasında "Vergi qaninvericiliyi" təlim bloku üzrə 16 onlayn təlim keçilmiş, bu təlimlərə 374 nəfər dövlət vergi orqanı əməkdaşı cəlb edilmişdir.

Bu təlim bloku sertifikatlaşdırılma prosesinin birinci mərhələsidir. İlk mərhələni uğurla keçən əməkdaşlar müvafiq fəaliyyət sahələri üzrə "Vergi inzibatçılığı" təlim bloku üzrə ikinci mərhələyə dəvət edilirlər. Birinci mərhələdən uğurla keçmiş 146 nəfər ikinci mərhələyə təlimlərə cəlb olunmuşdur.

Hər iki mərhələni uğurla keçmiş 125 nəfərə üç dərəcə üzrə sertifikatlar verilmişdir. 50 nəfər əməkdaş birinci dərəcəli sertifikat almışdır.

**-Tədris prosesində istifadə olunan təlim metodları və onların fərqləndirici xüsusiyyətləri hansılardır?**

- Təlim prosesində passiv, aktiv və interaktiv təlim metodlarından istifadə olunur. Mərkəzdə ən geniş yayılmış "açıq səma", "konkret halların təhlili", " kiçik qruplarda (komandada) iş, "beyin həmləsi", "rollar və işgüzar oyunlar", debat", "diskussiya", "sual-cavab", "təcrübə əsasında öyrənmə" və "dəyirmi masa" kimi təlim metodlarından geniş istifadə edilir.

Hər bir metodun özünəməxsus xüsusiyyəti var. Mühazirə və praktiki məşğələlər zamanı mövzunun xüsusiyyətindən asılı olaraq metodlar seçilir və tətbiq edilir. Yay ayları olduğu üçün "açıq səma" metodundan geniş istifadə edilir.

**-Vergi sistemində tədrisin keyfiyyəti necə müəyyənləşdirilir? Son dövrlər tətbiq olunan ilkin və yekun qiymətləndirmənin nəticələri barədə nə deyə bilərsiniz?**

- Təlimlərin qiymətləndirilməsi iki mərhələdə aparılır. Birinci mərhələdə kursun bitməsindən sonrakı həftə ərzində iş yerində dinləyicilərin təlimdən məmnunluq səviyyəsinin qiymətləndirilməsi üçün sorğunun aparılması nəzərdə tutulur. Bu mərhələdə dinləyicilərin təlimin təşkili, təlim materialları, biliklərin qiymətləndirilməsi və təlimçilərin təlim qabiliyyətləri barədə rəyləri və təklifləri öyrənilir.

İkinci mərhələ təlimdən altı ay sonra aparılır. Bu mərhələdə təlimin nəticələrinin ümumi fəaliyyətə təsirinin qiymətləndirilməsi üçün təlim prosesində verilən biliklərin dinləyicilərin və struktur vahidinin fəaliyyət nəticələrinə təsirinin qiymətləndirilməsi, eləcə də təlimlərin təkmilləşdirilməsinə dair təkliflərin alınması məqsədilə həm dinləyicilər, həm də onların birbaşa rəisləri (şöbə və bölmə rəisləri) arasında sorğuların aparılması nəzərdə tutulur.

"Peşə fəaliyyətinin ümumi əsasları" və "İxtisas sahələri (fəaliyyət sahələri)" üzrə keçirilən hər təlim prosesi zamanı dinləyicilərin bilik və peşə hazırlığı səviyyəsinin ilkin və yekun qiymətləndirilməsi aparılır.

**- Ənənəvi son sual: Tədris Mərkəzinin qarşısında duran əsas məsələlər, yeni layihələr?**

- İlk növbədə, sertifikatlaşdırma təlimlərini uğurla başa çatdırmaq, vergi sisteminə peşəkar kadrların verilməsi istiqamətində tədbirləri həyata keçirmək niyyətindəyik. İxtisas (fəaliyyət) sahələri üzrə, peşə fəaliyyətinin ümumi əsasları üzrə təlimləri də davam etdiririk. Büdcədənkənar fond hesabına saxlanılan müfəttişlər üç günlük əyani təlimlərə cəlb edilir.

Vergilər Nazirliyi əməkdaşlarının peşə hazırlığı prosesində elektron təhsil (e-learning) sisteminin tətbiq edilməsi məqsədilə oktyabrın 7-də "Vergi sahəsində kadr hazırlığı: problemlər və perspektivlər" mövzusunda dəyirmi masa keçirməyi nəzərdə tuturuq.

"Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan"da əsas istiqamətlərdən biri Tədris Mərkəzinin bazasında Regional Tədris Akademiyasının yaradılmasıdır.

Azərbaycan Respublikası Prezidentinin "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 4 avqust 2016-cı il tarixli Sərəncamında nəzərdə tutulan istiqamətlər üzrə yerli və beynəlxalq strukturlarla əməkdaşlıq, mütəmadi olaraq yerli və beynəlxalq ekspertləri cəlb etməklə əməkdaşların fəaliyyət sahələrinə uyğun olaraq təlimlərin təşkili, vergi ödəyiciləri ilə görüşlərin təşkili və onları maraqlandıran mövzular üzrə təlimlərin keçirilməsi, vergi sisteminin inkişafı və hüquqi təminatına dair aktual elmi-tədqiqat və araşdırma işlərinin aparılması nəzərdə tutulur. Həmçinin, yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin təşkili, işə qəbul prosesində sual bazasının hazırlanması, təlim tələbatlarının öyrənilməsi, metodiki kabinetlərin ehtiyaclarının öyrənilməsi və onların təminatı, tədris prosesinin tam avtomatlaşdırılması, təlimçilərin seçilməsi və onlara təlimlərin keçirilməsi, vergi siyasətinin təkmilləşdirilməsi ilə əlaqədar qəbul edilmiş yeniliklər üzrə innovativ təlimlərin təşkili ("Tax free" sisteminin tətbiqi, risklərin idarə edilməsi, e-audit sisteminin tətbiqi və s.), infrastrukturun yenilənməsi və d. istiqamətlərdə tədbirlərin keçirilməsi də planlaşdırılıb.

# Vergi yükü azaldılır




Azərbaycan Respublikasının Prezidentinin 4 avqust tarixli "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında Sərəncamında mühüm istiqamətlərdən biri də vergi yükünün azaldılması və inzibatçılığın yüngülləşdirilməsi ilə bağlıdır. Vergilər Nazirliyindən bildiriblər ki, bu bənd vergi dərəcələrinin optimallaşdırılması baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, vergi idarəçiliyi sistemində inzibatçılığın müasir standartlar çərçivəsində təşkili həm vergi orqanlarının fəaliyyətinin səmərəliliyinə, həm də vergi ödəyicilərinin vergitutma sahəsində öhdəliklərinin keyfiyyətlə yerinə yetirilməsinə təsir göstərən əsas amillərdəndir. Azərbaycanın vergi siyasətində vergi inzibatçılığının təkmilləşdirilməsi mühüm yer tutur.

Məlum olduğu kimi, Vergi Məcəlləsinin qüvvəyə mindiyi 1 yanvar 2001-ci il tarixdən ötən dövr ərzində hüquqi şəxslərin mənfəət vergisinin dərəcəsi 27 faizdən 20 faizə endirilib. Bu dəyişiklik 1 yanvar 2010-cu ildən tətbiq edilir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin illik gəlirlərindən tutulan gəlir vergisinin dərəcəsi isə 1 yanvar 2010-cu il tarixdən 20 faiz həddində müəyyən edilməklə hüquqi və fiziki şəxslərin mənfəətinə (gəlirinə) tətbiq olunan verginin dərəcəsi eyniləşdirilib. Əlavə dəyər vergisinin dərəcəsi Vergi Məcəlləsi qüvvəyə mindiyi tarixdən 18 faiz dərəcə ilə müəyyənləşdirilib.

Vergilər Nazirliyindən bildiriblər ki, hazırda Azərbaycanda vergi yükü göstəricisi əksər dövlətlərdən aşağıdır. Lakin aparılan iqtisadi islahatlar fonunda qeyri-neft sektorunda investisiyaların təşviqi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarların maliyyə vəsaitlərinə qənaət etməklə istehsalın genişləndirilməsi və məşğulluğun təmin edilməsi məqsədilə, vergi yükünün yenidən qiymətləndirilməsini zəruri edir.

Ekspertlərin fikrincə, bu proses bir sıra vergi dərəcələrinin aşağı salınması, bəzi vergi növlərinin inzibatçılığının təkmilləşdirilməsi, vergi nəzarətinin sadələşdirilməsi və elektron audit sisteminin geniş tətbiqi formasında öz əksini tapa bilər.

Sərəncamda diqqət çəkən məsələlərdən biri də sabit verginin tətbiqidir. Sabit vergi fiziki şəxslərin əldə etdiyi gəlirlərinin həcmindən asılı olmayaraq, aylıq vahid məbləğdə müəyyən edilən vergidir. Sabit verginin tətbiqi praktikası hazırda qüvvədə olan Vergi Məcəlləsində də mövcuddur. Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını həyata keçirən şəxslərə münasibətdə sabit vergi sistemi nəzərdə tutulur. Həmin şəxslər Vergi Məcəlləsinin 220-ci və 221-ci maddələri ilə müəyyən edilmiş sadələşdirilmiş vergini sabit vergi şəklində ödəyir və bu zaman istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımilllik və ya il üçün «Fərqlənmə nişanı» alırlar. Mövcud qanunvericiliyə görə, fərdi xidmətlər təqdim edən və bu tip kiçik sahibkarlıq fəaliyyəti göstərən şəxslər də digər vergi ödəyiciləri kimi qanunvericiliklə müəyyən edilmiş vergilərin ödəyiciləridir. Fərdi sahibkarlıqla məşğul olduqlarına görə, bu şəxslər əldə etdikləri gəlirdən, seçdikləri vergitutma metodundan asılı olaraq, sadələşdirilmiş və ya gəlir vergisini hesablayıb dövlət büdcəsinə ödəməlidirlər. Bunun üçün onlar ilk növbədə Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada vergi orqanlarında uçota alınmalıdırlar. Fərdi sahibkarlıqla məşğul olan şəxslərin vergi öhdəliklərinin sadələşdirilməsi və patent sisteminin tətbiqi ilə bağlı vergi qanunvericiliyinə dəyişikliklər edilməsi istiqamətində təkliflər son zamanlar geniş müzakirə mövzusu idi. Sərəncamda bu məsələ öz həllini tapıb.

Vergilər Nazirliyindən bildiriblər ki, yeniliklərin tətbiqi fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdə vergi inzibatçılığının yüngülləşdirilməsi, vergi ödəmələrinin bəyannamə təqdim edilmədən sadələşdirilmiş qaydada yerinə yetirilməsi məqsədini daşıyır. Bu məqsədlə Vergi Məcəlləsində təklif edilən dəyişiklikdə həmin kateqoriyaya aid olan fiziki şəxslərin siyahısının və aylıq sabit vergi məbləğlərinin müəyyən edilməsi nəzərə tutulur.

Qeyd edək ki, sərəncamdan irəli gələn məsələlərin həlli vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın artırılmasına, real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsinə və inzibatçılığın daha da təkmilləşdirilməsinə əhəmiyyətli töhfə verəcək.

# Banklar kredit üçün müraciət edənlərə imtinanın səbəbləri barədə düzgün məlumat vermir




Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) kredit üçün müraciət etmiş şəxslərə imtinanın səbəbləri haqda düzgün məlumat vermədikləri barədə kommersiya banklarına məktub göndərib.

Bank sektorundan əldə edilmiş məlumata görə, məktubda bildirilir ki, daxil olmuş müraciətlərin təhlili göstərir ki, banklar tərəfindən kredit üçün müraciət etmiş şəxslərə imtina Nəzarət Palatası tərəfindən təsdiq edilən qadağa ilə əlaqələndirilir və müştərilərə imtinanın səbəbləri barədə düzgün məlumat verilmir.

"Bildiririk ki, yeni prinsiplərə əsasən, xarici valyutada daşınmaz əmlak krediti istisna olunmaqla digər hallarda kreditlərin verilməsi qadağan olunmur. Kreditdən imtina müvafiq şərtlərə uyğun olmayan müraciətlər üzrə kreditlər verildiyi təqdirdə onun geri ödənilməsində problemlərin ortaya çıxa biləcəyi, bununla da bank kreditlərinin gələcəkdə keyfiyyətinin pisləşməsi ilə bankların dayanıqlığına neqativ təsiri, digər tərəfdən vətəndaşların borc yükünün artması nəticəsində onların sosial rifahının aşağı düşə biləcəyi ilə əsaslandırılmalıdır", - deyə məktubda vurğulanıb.

Nəzarət Palatası banklara bu şərtləri işlərində rəhbər tutmağı tövsiyə edib.

Xatırladaq ki, MBNP 4 may 2016-cı il tarixindən etibarən kredit təşkilatlarına sağlam kreditləşmə və məsuliyyətli borclanmaya dair yeni prudensial çərçivə tətbiq edib. Bununla borcalanın gəlirlərinin həcmindən asılı olaraq borc yükünün gəlirə nisbəti və kredit məbləğinin təminata nisbəti əmsalları nəzərə alınmaqla milli və xarici valyutada kreditlərin verilməsi şərtləri müəyyən edilib.

Qeyd edək ki, bu qərar 2012-2013-cü illərdə bankların aqressiv və kütləvi kreditləşmə siyasətinin qarşısının alınması üçün qəbul edilib. Üstəlik, bu qərar daha çox əhalinin kredit yükünün və ona xidmət etmək imkanlarının sadələşdirilməsi və sağlamlaşdırılması məqsədini daşıyır. Başqa sözlə, bu tələblərin məqsədi odur ki, insanların aldığı kreditlər üzrə ümumi aylıq xərcləri onun ümumi aylıq gəlirlərin yarısından çox olmamalıdır. Ekspertlər hesab edirlər ki, bu tələblərə əməl olunması bankların problemli kreditlərinin həcminin artmasının qarşısını alacaq və son nəticədə bankların dayanıqlığı təmin olunacaq.

# Bakıda yeni bazar açılır

Bakıda "Kəndimiz" kənd təsərrüfatı məhsullarının satılacağı yeni bazar fəaliyyətə başlayacaq.

Yeni bazar "20 Yanvar" metro stansiyası yaxınlığında "Velotrek" adlanan ərazidə yerləşir ("Şəhər ticarət mərkəzi").

Bazar avqustun 27-də istifadəyə veriləcəkdir.

Qeyd edək ki, ötən il "20 Yanvar" metrostansiyasının yaxınlığında yerləşən "Velotrek" Ticarət Mərkəzi söküləcəyi barədə məlumatlar yayılmışdı.

# SƏRGİLƏR REKLAMIN VACİB ELEMENTİ KİMİ

Sərgilər reklamın təsir vasitələri arsenalında xüsusi yer tutur və alıcılarla birbaşa təmasların müəyyən edilməsi üçün reklam edilən məmulatların nümayiş etdirilməsinin çox geniş imkanları təəssüratını yaradır.



Yanaşı reklam tədbirləri (təqdimatların, mətbuat konfranslarının, dəyirmi masaların, mütəxəssislərlə görüşlərin və s. keçirilməsi ilə mətbuatda reklam kampaniyası) ilə əlaqədar sərgi tədbirləri xüsusilə səmərəlidir. Reklamın bu vasitələrinin yüksək səmərəliliyi onunla təsdiqlənir ki, hər il dünyada xeyli məsrəf tələb edən minlərlə iri sərgi tədbirləri keçirilir.

Sərgilər bəşəriyyətin bu və ya digər nailiyyətlərinin publik nümayiş etdirilməsi vasitəsi kimi yaranmışdır, əvvəllər xalis maarifləndirici xarakter daşıyırdı, lakin inkişaf etdikcə həmçinin parlaq ifadə edilmiş kommersiya istiqamətini aldı.

Bunları əsas götürərək sərgiyə aşağıdakı tərifləri vermək olar.

**Sərgi,** hər şeydən əvvəl, cəmiyyətin maddi və mənəvi həyat sferasının bu və ya digər sahələrinin nailiyyətlərinin publik nümayiş etdirilməsidir ki, bunun da əsas məqsədi kommersiya işinin keçirilməsi zamanı ideyaların, bəşəriyyətin, biliklərin mübadiləsidir.

Sərgi iqtisadiyyat, elm, texnika, mədəniyyət, incəsənət və ictimai həyatın digər sahələrində nailiyyətlərin publik təqdim edilməsidir. Sərgilərin yerli, milli, beynəlxalq və ümumdünya, eləcə də insan həyatının bütün sahələrini əhatə edən ümumi növlərini fərqləndirirlər. İxtisaslaşdırılmış sərgilərə bədii, sənaye və kənd təsərrüfatı sərgilərini aid edirlər. Həmçinin, dövri (müvəqqəti) və daimi sərgiləri də ayırmaq olar:

**Sərgi** ("Beynəlxalq sərgilər bürosunun" tərifinə görə) tələbatların ödənilməsi üçün bəşəriyyətin sərəncamında olan vasitələrin təqdim edilməsi yolu ilə, eləcə də onun fəaliyyətinin bir və ya bir neçə sahəsində tərəqqi məqsədilə necə olursa olsun göstərilməsidir.

Şərti olaraq bütün sərgi tədbirlərini aşağıdakı şəkildə təsnifləşdirmək olar.

**Beynəlxalq sərgilər** bir qayda olaraq, dünyanın bir çox ölkələrindən böyük miqdarda iştirakçıları yığan müntəzəm sərgi tədbirləridir. Onları ümumsahə və ixtisaslaşdırılmış sərgilərə bölmək olar. Ümumsahə sərgilərdə iqtisadiyyatın ən müxtəlif sahələrinin məmulat və məhsulları, ixtisaslaşdırılmış sərgilərdə isə bir və ya bir neçə yaxın və ya qarşılıqlı tamamlanan sahələrin eksponatları nümayiş etdirilir.

Beynəlxalq sərgilərdə eksponatların nümayiş etdirilməsi həm milli əlamət üzrə (milli pavilyonlar və ekspozisiyalar çərçivəsində), həm də sahə prinsipi üzrə (bu zaman ekspozisiyalar əmtəə qrupları üzrə formalaşır) keçirilir.

**Milli sərgilər** həyatın ən müxtəlif sahələrində ölkənin nailiyyətlərini əks etdirən xüsusi təşkil olunmuş ekspozisiyalardır (bir qayda olaraq, elmi-texniki və mədəni mübadilələr və s. çərçivədə yubiley günləri). Belə sərgilər həm ölkə daxilində, həm də xaricdə keçirilir. Milli sərgilər stasionar və ya səyyar sərgilərə bölünür. İldən-ilə milli sərgilərdən reklam və kommersiya işinin keçirilməsi üçün daha səmərəli istifadə olunur.

**Reklam vericisinin ixtisaslaşdırılmış sərgiləri** sifarişçi təşkilat tərəfindən təşkil olunur və maliyyələşir. Onlar qeyd edildiyi kimi, stasionar və səyyar növlərə bölünür. Ölkənin təşkilatlarının reklam işi təcrübəsində daxili bazarda satış sərgilərinin təşkili xüsusi inkişaf əldə etmişdir, burada məhsulun reklamı və nümayiş etdirilməsi ilə eyni zamanda onun satışı həyata keçirilir.

İxtisaslaşdırılmış sərgilərin təşkili ilə əlaqədar xeyli məsrəflərə baxmayaraq, bu tədbirlərin səmərəliliyi, bir qayda olaraq, kifayət qədər yüksəkdir.

*(davamı gələn sayımızda)*

*F.M.Qarayev,*
*BDU-nun dosenti*

# Metrodan istifadə edənlər azalıb

2016-cı ilin yanvar-iyul aylarında Azərbaycanda bütün növ nəqliyyat vasitələri ilə sərnişindaşımaların həcmi 1 milyard 61 milyon 395 min nəfər təşkil edib ki, bu da ötən ilin analoji dövrünün göstəricisindən 1,9% çoxdur. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Hesabat dövründə dəmir yolu nəqliyyatı ilə 1 milyon 58,4 min nəfər (azalma 8,1%), dəniz nəqliyyatı ilə 9,7 min nəfər (artım 2,2 dəfə), hava nəqliyyatı ilə 1 milyon 59,4 min nəfər (artım 5,4%), metro ilə 125 milyon 347,7 min sərnişin (azalma 2,6%) daşınıb.

2016-cı ilin yanvar-iyul aylarında avtomobil nəqliyyatı vasitələri ilə 933 milyon 919,8 min sərnişin (artım 2,5%), avtobuslarla 897 milyon 266,9 min sərnişin (artım 2,5%), taksi minik avtomobilləri ilə 36 milyon 652,9 min sərnişin (artım 3,1%) daşınıb.




# "Şahdağ" Turizm Mərkəzinə gələn turistlərin sayı açıqlanıb



Yay mövsümünün başlanğıcı hesab olunan İyun ayından bu günədək "Şahdağ" Turizm Mərkəzinə gələn turistlərin sayı 25 000-dən çox olmuşdur.

Bu barədə Mədəniyyət və Turizm Nazirliyinindən bildirilib.

Qeyd edək ki, "Şahdağ" Turizm Mərkəzi Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindədir.

# Azərbaycan bazarına daxil olacaq

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu ilə (AZPROMO) ABŞ-ın "MRC Global" şirkəti arasında qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

AZPROMO-dan bildiriblər ki, sənəd Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunda sənayenin müxtəlif sahələrində fəaliyyət göstərən "MRC Global" şirkətinin nümayəndələri ilə keçirilən görüşdə imzalanıb.

Görüşdə ölkəmizin biznes və investisiya mühiti, tranzit imkanları barədə geniş məlumat verilib. Həmçinin "MRC Global" şirkətinin Azərbaycan bazarına daxil olması məsələləri müzakirə olunub.

İDEAL DİZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar



Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

## Təbrik

# "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti – 30

**"Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti 1986-cı ildən etibarən dövlət müəssisəsi olaraq 4 nömrəli Bakı kitab mətbəəsi kimi fəaliyyətə başlamışdır. 2001-ci ildə müəssisənin təşkilati-hüquqi forması dəyişdirilmiş və o, "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyətinə (ASC) çevrilmişdir.**

Hazırda müəssisədə nəşriyyat və poliqrafiya sahəsində respublikamızda və xaricdə təhsil almış yüksək ixtisasa və böyük təcrübəyə malik mütəxəssislər çalışırlar.

"Şərq-Qərb" ASC yüksək keyfiyyət standartlarına cavab verən məhsul istehsalına malikdir. Ən müasir və yeni poliqrafiya avadanlıqları ilə təchiz edilmiş müəssisə dizayn və səhifələmə sahəsində dünyanın ən qabaqcıl texnologiyalarından istifadə edir. Müəssisə hər il ümumi tirajı 2 milyondan çox olan və müasir tələblərə cavab verən çap məhsulları istehsal edir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamının icrası ilə əlaqədar olaraq, "Şərq-Qərb" ASC tərəfindən yüzlərlə kitab nəşrə hazırlanmış, eləcə də "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" 24 avqust 2007-ci il tarixli digər sərəncamının icrası ilə əlaqədar olaraq, 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası" seriyası nəfis tərtibatla hazırda nəşr edilməkdədir.

2011-2014-cü illər ərzində "Şərq-Qərb" ASC məktəbəqədər və məktəbli uşaqlar üçün 100-dən çox müxtəlif adda kitablar, o cümlədən dərs vəsaitləri, iş dəftərləri, qiymətləndirmə vasitələri, sinif jurnalları və s. hazırlayaraq çap etmişdir. Artıq 3 ildir ki, "Məktəbli kitabçası" tam yeni konsepsiya və dizaynda, gündəlik tarixlər göstərilməklə, məlumat bölmələri ilə, bir sıra digər yeniliklərlə "Şərq-Qərb" ASC tərəfindən hazırlanır və Azərbaycanda ilk dəfə tam rəngli çap olunur.

"Şərq-Qərb" ASC 2007-ci ildə Moskva şəhərində keçirilmiş MDB ölkələrinin "Kitab mədəniyyəti" III Beynəlxalq müsabiqəsinin I dərəcəli diplomuna layiq görülmüşdür. Müəssisə Bakı Beynəlxalq sərgi-yarmarkalarında fəal iştirakına görə dəfələrlə diplomlarla təltif olunmuşdur. 2009-cu ildə "Şərq-Qərb" ASC "İlin mətbəəsi" adını almış, 2011-ci ildə "Azərbaycan Dövlət Bayrağı" mükafatına layiq görülmüşdür.

"Şərq-Qərb" ASC-nin 2010-cu ilin sentyabr ayından etibarən Almaniyanın Frankfurt şəhərində xarici nümayəndəliyi fəaliyyət göstərməyə başlamışdır. "Şərq-Qərb" ASC son 2 ildə London Beynəlxalq kitab sərgisində də uğurla iştirak etmişdir.

Bu günlərdə 30 illiyini qeyd edən bu mətbəə Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzeti ilə 1994-1995-ci illərdən əməkdaşlığa başlamış və bu ünsiyyət, bu işbirliyi bu günə qədər də yüksək səviyyədə davam etməkdədir. Akademik Ziyad Səmədzadənin "Dağlıq Qarabağ: naməlum həqiqətlər" kitabı ilə başlanan və müəllifin rəhbərliyi ilə 7 cilddə çap olunan "Böyük İqtisadi Ensiklopediya" ilə davam edən bu işbirliyi böyük inkişaf yolu keçən dostluğa bariz nümunədir.

1999-cu ildən buraxılan "İqtisadiyyat" qəzetinin ilk nömrəsi də məhz "Şərq-Qərb" ASC-də çapdan çıxmışdır.

30 il "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti üçün çox qısa vaxtdır. Əminik ki, "Şərq-Qərb" hələ 50 il, 100 il də Azərbaycan mətbuatına, Azərbaycan mədəniyyətinə, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəkdir.

**"Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyətinin böyük kollektivini 30 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, gördükləri böyük işlərdə uğurlar diləyirik.**

***Azərbaycan İqtisadçılar İttifaqı,***
***"İqtisadiyyat" qəzeti***

# Yeni Biznes-jurnalistika proqramına start verilib

PASHA Bank
New heights. Together.
BRITISH COUNCIL

Azərbaycanın ən iri banklarından biri olan PAŞA Bank "British Council" ilə birgə yerli biznes-jurnalistikanın inkişafına həsr olunmuş yeni proqramın həyata keçirilməsi elan edir. Layihənin əsas məqsədi jurnalistlər xüsusi hazırlanmış təlim proqramı vasitəsilə peşəkar bilik və səriştələrinin artırılmasına dəstək göstərməkdir.

Layihə Böyük Britaniyanın 100-dən artıq ölkədə fəaliyyət göstərən, Avropanın ən böyük media təşkilatlarından biri sayılan və mətbuatda ən yüksək etik və peşəkar standartları dəstəkləyərək müxtəlif ölkələrdən minlərlə jurnalistlərin kütləvi media vasitələrinin yaradılmasına imkan yaradan Thomson Fondunun təşkilati dəstəyi ilə həyata keçiriləcək.

Layihə çərçivəsində 10 seçilmiş iştirakçının media sahəsində xüsusi olaraq hazırlanmış təlim proqramında iştirakı, eləcə də fəal və tam davamiyyəti olan jurnalistlərin Böyük Britaniyaya təlim səfəri nəzərdə tutulmuşdur. Səfər zamanı tanınmış qəzet və jurnal, eləcə də digər media müəssisələrinə səfərlər və qabaqcıl jurnalistlərlə görüşlər təşkil olunacaqdır. Bizim məqsədimiz qabaqcıl jurnalistlər qrupu yaratmaqla ölkədə düzgün və balanslı məlumatın çatdırılması və Azərbaycanda biznes jurnalistika standartlarının nəzərə çarpacaq dərəcədə inkişaf etdirilməsinə töhfə verməkdir.

Maraqlanan şəxslər ərizə formasını British Council-ın internet səhifəsindən www.britishcouncil.az yükləməlidirlər. Doldurulmuş ərizə forması, CV ilə birgə 2016-cı il 30 sentyabr tarixindən gec olmayaraq enquiries@britishcouncil.az elektron poçt ünvanına göndərilməlidir.

# İki ən yaxşı tələbə jurnalist təhsilini Londonda davam etdirəcək



Azercell Telekom MMC-nin Kaspi Təhsil Mərkəzi ilə 2016-cı il üzrə jurnalistlər üçün təşkil etdiyi ingilis dili kursları artıq yekunlaşıb. Hal-hazırda Təhsil Mərkəzi tərəfindən kurslarda iştirak edən jurnalistlərin bilik səviyyələri müəy-yənləşdirilir. Bununla bərabər, Londona səfər edəcək 2 ən güclü tələbənin seçimlərinə də başlanılıb. Hər il olduğu kimi, bu il də imtahanlarda yüksək nəticələr göstərən 2 jurnalist tələbə müəyyən olunacaq və onlar Böyük Britaniyada ingilis dilininin təkmilləşdirilməsi kursuna göndəriləcəklər.

Qeyd edək ki, sözügedən layihə zamanı 6 ay ərzində mətbuat nümayəndələri bir neçə səviyyədən ibarət ingilis dili proqramı üzrə tədris keçiblər. 60 jurnalistin qatıldığı kursların uğurlu tədrisi sayəsində onlar ingilis dilinin qrammatikası, danışıq və yazı bacarıqlarına yiyələniblər. Kursların məqsədi Azərbaycanlı jurnalistlərin ingilis dilini öyrənməsinə kömək etmək, onların ingilis dilli mənbələrdən sərbəst istifadəsinə yardımçı olmaqdan ibarətdir.

Məlumat üçün bildirək ki, "Azercell" şirkəti jurnalistlər üçün xarici dil kurslarını artıq 6 ildir ki təşkil edir. Bü günə kimi 200-dən çox KİV nümayəndəsi ixtisaslaşmış xarici dil kurslarında iştirak edib. Bununla da KİV nümayəndələrinin inkişafına yönələn bu layihə ilə "Azercell" şirkəti onların peşəkar bacarıqlarının artırılmasına və beynəlxalq əlaqələrinin qurulmasına dəstək olur.

**ELAN**

**"Alfa Sığorta" ASC-yə məxsus DFM/3 428892, DFM/3 429698, DMF/3 419029, BFS 000056, BFS 002089, BFS 005459, BFS 005460, BFS 000189, BFS 005061 nömrəli qəbzlər itdiyi üçün etibarsız sayılır.**

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
*Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Şahrza Əliyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Rauf Əliyev, Süleyman Qasımov, Cahangir Qocayev.*

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 *(fax)*
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Zaman-Azər" MMC firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3150